# İtaliya-Azərbaycan münasibətləri böyük coğrafiyaya fayda gətirir

**Azərbaycan xarici siyasətində İtaliya ilə olan münasibətlər öz spesifikliyinə görə fərqlənir. Bu məsələyə ilk növbədə iki dövlət arasında olan münasibətlər kimi baxılırsa, digər tərəfdən İtaliyanı Azərbaycanın Avropaya açılan pəncərəsi kimi dəyərləndirsək, yanılmarıq. İllər ərzində Avropa İttifaqına daxil olan və olmayan bəzi Avropa ölkələri ilə, avrostrukturlarla əlaqələrin balanslaşdırılmasında və tarazlaşdırılmasında İtaliyanın əvəzsiz rolu və töhfəsi var.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi, bunun fonunda və digər məsələlər səbəbindən Azərbaycana edilən təzyiqlərin, üz-üzə qaldığımız haqsızlıqların gözardı edilməməsində İtaliya ilə qurduğumuz münasibətlər olduqca həlledici idi. Məhz bu açar Trans-Adriatik boru xəttinin açılışına qapı açdı. Bir çox mürəkkəb kombinasiyanın mövcudluğunda İtaliya Prezidenti Sercio Mattarellanın şəxsi müdaxiləsindən sonra boru xəttinin qarşısında dayanan problemlər yoluna qoyuldu. "Bu məqamda xüsusi qeyd etmək yerinə düşər ki, Azərbaycan da layihənin uğurla başa çatdırılması üçün bütün resurs və potensialını səfərbər etdi. 2020-ci ilin sentyabrından noyabr ayına qədər faktiki olaraq müharibədə olan Azərbaycan elə həmin il dekabrın son günü TAP-ın müvəffəqiyyətlə realizəsinə nail oldu.

Deputat qeyd edib ki, vaxtilə "Cənub qaz dəhlizi"nə barmaqarası yanaşan populistlər, bu meqalayihəyə mane olmaq üçün əllərindən gələn hər şeyi etməyə hazır olan fürsətçilərin ağzını yuman amil məhz bu gün layihə vasitəsilə 14 ölkəyə təbii qaz ixrac edilməsi statistikası və faktıdır. Digər mühüm məqam odur ki, Azərbaycan boru kəmərləri vasitəsilə ixrac edilən təbii qazın coğrafi arealına görə dünyada birinci sırada qərarlaşıb. Azərbaycan İtaliyaya 10 milyard kubmetrdən çox təbii qaz ixrac edir. Neftimiz İtaliyanın neft balansında ilk, qazımız isə ikinci yerdədirsə, bu həm tərəfdaşlığın möhkəm və sağlam təməllər üzərində qurulduğundan xəbər verir, həm də qarşılıqlı inam və etimadın başlıca təzahürüdür.

A.Badamov vurğulayıb ki, İtaliya Azərbaycanın bazarlara çıxışı üçün güvənli kanaldır: "Məhz İtaliyadan sonra dünya bazarlarına ixrac olunan neft və qazımızın həcmini əhəmiyyətli dərəcədə artırmağa nail olmuşuq. Təbii ki, əldə olunan nəticələr yeni layihələrə yol açır. Belə ki, hazırda Azərbaycan Avropa İttifaqı ilə elektrik enerjisinin ixracı üzrə işləyir. Azərbaycan Prezidenti İlham Əliyev İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə birgə mətbuata bəyanatla çıxış edərkən bildirdi ki, hazırda elektrik xətlərinin çəkilməsi ilə əlaqədar olaraq texniki-iqtisadi əsaslandırma üzərində gedir. Dövlət başçımız bunun yaxın zamanda hazır olacağının anonsunu da verdi. Sonuncusu TAP olmaqla, ümumilikdə, dörd böyük seqmentdən ibarət 3500 km uzunluğunda "Cənub qaz dəhlizi" getdikcə daha geniş coğrafiyaya yol açır".

Azərbaycanla İtaliya arasında iqtisadi əlaqələrin hər keçən gün daha da genişləndiyini deyən deputat əlavə edib ki, İtaliyanın Cənubi Qafqaz ölkələri ilə ticarətdə 90 faizə yaxın müşahidə olunan dinamikası məhz Azərbaycanın payına düşür. Azərbaycan və İtaliya arasında ticarət dövriyyəsinin 2024-cü il üzrə 16 milyard dollardan çox olduğu faktı fundamental amildir. İtaliya Azərbaycanın birinci xarici tərəfdaşıdır. Habelə Xəzərin dibi ilə Avropaya qədər ötürüləcək elektrik enerjisi əməkdaşlığın artırılması qədər inam və etimadın da yüksəlməsinə təsir edəcək. Məhz layihələr boyu nümayiş olunan mövqe, atılan addımlar aktorların simasını bir daha məlum edir, üzə çıxarır. Bu məqamda qeyd edilməlidir ki, həm Azərbaycan, həm də İtaliya güvəniləcək aktorlardır.

Onun sözlərinə görə, formalaşdırılan bu inam və etimad fərqli sahələr üzrə daha da möhkəmlənir: "Bir müddət öncə yenicə istifadəyə verilmiş 1280 MeqaVatt gücündə İstilik-Elektrik Stansiyasının yenidən qurulmasında İtaliya şirkətləri yaxından iştirak edib. Habelə Sumqayıt Kimya-Sənayesi Parkında Azərbaycan-İtaliya müəssisəsi yaradılıb ki, müəssisənin açılışında dövlət başçılarının iştirakı iqtisadi əlaqələrin bütün sahələr üzrə inkişafına göstərilən yüksək diqqətdən xəbər verir".

A.Badamov deyib ki, Azərbaycanın qarşısında müəyyənləşdirdiyi birnömrəli prioritet məsələlərdən biri işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpa prosesində qabaqcıl texnologiyaların tətbiqi, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin icrasıdır. İtaliya şirkətləri bu sahədə də yaxından iştirak edirlər. Həmçinin Ağdam Sənaye Parkında holland və mozzarella pendiri, italyan pendiri istehsal edilən və investisiya tutumu 2,2 milyon dollar olan süd məhsulları istehsalı zavodu tikilib. Münasibətlərimizin daha da dərinləşdirilməsi üçün qarşılıqlı maraq mövcuddur. Məhz bu marağın mövcudluğu əlaqələrin iqtisadi sahə ilə məhdudlaşmamasında özünü büruzə verir. Belə ki, humanitar sahə üzrə münasibətlər də dərinləşdirilir ki, bu da uzaqgörən və dayanıqlı yanaşmadır. Bu amil dövlətlər qədər cəmiyyətləri də bir-birinə yaxınlaşdıracaq. "İtaliyada keçirilən Azərbaycan mədəniyyəti günləri mədəni irsimizin dünyaya tanıdılması qədər bu ölkə vətəndaşlarının ölkəmizə marağının artmasına səbəb olur. Azərbaycan-İtaliya Universitetinin açılması isə gələcəyə qoyulan sərmayədir ki, bu, daha fundamental baxış anlamına gəlir. Universitet əmək bazarı üçün yüksəkixtisaslı mütəxəssislər hazırlayacaq. Xüsusilə aqronomiya və baytarlıq fakültələri üzrə ölkəmizin aqrar sektorunun inkişafı baxımından peşəkar mütəxəssislərə ehtiyacı və tələbatı var ki, məhz onlar bu universitetdə yetişəcək. Bu universitetin yetirmələri ölkələrimizin maraqlarının fəal müdafiəçiləri qismində də çıxış edəcəklər", - deyə o bildirib.

Deputat vurğulayıb ki, İtaliya-Azərbaycan münasibətləri həm tarazlaşdırıcı, həm də balanslaşdırıcı funksiyaya malikdir. Odur ki, bu münasibətlərin inkişafı həm iki ölkəyə, həm də böyük bir coğrafiyaya sabitlik və fayda gətirir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 2 oktyabr (№211).- S.7.